No: 01 2026
https://doi.org/10.64400/ea26-01-29
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# SOSİAL ƏDALƏT ANLAYIŞININ TARİXİ-FƏLSƏFİ ƏSASLARI

**Məlahət MƏMMƏDOVA**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: mila-mamedova@inbox.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:**
ədalət, fərd, cəmiyyət, bərabərlik, hüquq

**XÜLASƏ**
Sosial ədalət, cəmiyyət həyatında fərdlərin hüquqlarının təmin olunmasını və resursların ədalətli paylanmasını ehtiva edən anlayışdır. Tarixi prosesin inkişafı gedişatında bu anlayış, daha çox insan hüquqları, sosial müdafiə və cəmiyyətin zəif təbəqələrinin qorunması, müdafiə olunmasını ifadə etmişdir. Bugünümüzdə, sosial ədalət yalnız hüquqi mahiyyət daşımır, həm də əxlaqi və fəlsəfi mahiyyət kəsb edərərk, fərdlə cəmiyyət arasındakı münasibətləri tənzimləyir. Bu, həm hüquqların bərabərliyini təmin edir, həm də daha geniş imkanlar açaraq, fərdlərin azad həyat şərtlərini təmin edir. Sosial ədalət həm də fərd və cəmiyyət əlaqələrində ədalətli qaydaların tətbiqini nəzərdə tutur. Bu daha çox, sosial-iqtisadi bərabərliyin təmin olunmasında, sosial müdafiə, təhsil və digər ictimai xidmətlərdə balansın qorunmasında özünü göstərir. Odur ki, sosial ədalət, ayrı-ayrı fərdlər, bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyəti olan ictimai nizamın əsasını təşkil edir və nəticə etibarı ilə, inkişafın sosial tərəflərini ədalətli şəkildə tənzimləməyə xidmət edir.

## GİRİŞ

Sosial ədalət anlayışı, insan cəmiyyətinin formalaşdığı zamandan bu yana bəzən çatılması çətin olan bir hədəf, bəzən isə xüsusilə də, qəddar üsullarla idarə olunan cəmiyətlərdə nifrət edilən bir anlayış kimi özünü göstərmişdir. Hər bir halda, ədalət anlayışı insanlıq tarixi boyunca öz aktuallığını qoruyub saxlamışdır. Bu mövzuda ideoloji, fəlsəfi və sosioloji baxımdan müxtəlif baxışlar irəli sürülmüşdür.

Fəlsəfi mənada ədalət anlayışının ilk sistematik qiymətləndirilməsi Platona aiddir (Topakkaya, 2008, pp. 27–49). Onun tələbəsi Aristotel isə müəlliminin ideal ədalət (dövlət) anlayışına qarşı özünün ədalət və onun üzərində qurulan dövlət anlayışını qoymuşdur. (Topakkaya, 2009, p. 628). Başqa sözlə, Platonun baxışlarında ədalət daha çox, sosial münasibətləri nizamlayan etik-siyasi mahiyyət kimi ifadə olunmuşdur. Aristotel də ədaləti etik və siyasi kateqoriya kimi sistemləşdirsə də, onu paylayıcı və düzəldici kimi formalara ayırmışdır.O qəbul edirdi ki, paylayıcı ədalət nemətlərin və vəzifələrin fərdlər arasında bərabər bölüşdürülməsini nəzərdə tutursa, düzəldici ədalət fərdlər arasında yaranan haqsızlıqların aradan qaldırılması ilə bağlıdır.

Göründüyü kimi antik dövrdə ədalət anlayışı əsasən normativ və etik xarakterli olmuşdur. Bu, daha çox cəmiyyətin bütövlüyünün qorunmasına xidmət edirdi. Lakin zaman keçdikcə, xüsusən də, yeni və müasir dövrdə ədalət anlayışının məzmunu fərdi hüquqların ön plana çıxması ilə dəyişmişdir. Sosial bərabərlik, imkanlara çıxış və dövlətin sosial məsuliyyəti kimi məsələlər ədalət anlayışının sosial xarakter almasına təkan vermişdir. (Rawls, 1971).Lakin günümüzə qədər müxtəlif mənalarda istifadə olunsa da, mahiyyəti dəyişməmişdir.

Sosial ədalət anlayışı ilk dəfə **Taparelli d'Azeglio** tərəfindən işlədilmişdir. O,bunu "əbədi hüquq" anlayışı mənasında Tanrı tərəfindən diktə olunan qanun kimi izah etmişdir ( d'Azeglio, 1845). Daha sonra **De Mun və Goyau** kimi Fransız Katolik sosial liderləri sosial ədaləti hüquq və öhdəliklər çərçivəsində şərh etmişlər (de Mun, 1882; Goyau, 1904).

XX əsrin əvvəllərində sosial ədalət mövzusunda **Willoughby** və **John A. Ryan** tərəfindən nəzəri işlər dərc edilmiş, minimum əmək haqqı anlayışı sosial ədalət prizmasından əsaslandırılmışdır (Willoughby, 1900; Ryan, 1906).

**Miller** sosial ədaləti ehtiyac, layiq olma və bərabərlik meyarları kimi şərh edir (Miller, 1999), **Walzer** isə ədalətin universal olmadığını, konkret social çərçivədə formalaşdığını vurğulayır (Walzer, 1983). Digər tərəfdən, **Nozick** fərdi azadlıqları və mülkiyyət hüququnu ön plana çəkir (Nozick, 1974), **Sen** isə sosial ədaləti resurslardan istifadə bacarığı prizmasından dəyərləndirir (Sen,

1999). **Fraser** və **Young** sosial ədalətin tanınma və mədəni bərabərlik aspektlərini önə çıxarırlar (Fraser, 2000; Young, 1990).

Ümumilikdə sosial ədalət anlayışı müxtəlif filosoflar tərəfindən fərqli formalarda şərh edilsə də, onların hamısının ortaq məqsədi fərdlərin bərabər, ləyaqətli və azad həyat sürməsini təmin edən ədalətli ictimai nizamın qurulmasıdır.

Sosial ədalət əsasən cəmiyyət daxilində bərabərliyi ön plana çəkir. XIX əsrdən başlayaraq artan sinfi fərqliliklər, bunun nəticəsində ortaya çıxan sosial münaqişələr, sosial ədalət anlayışının ön plana çıxmasına şərait yaratmışdır. Xüsusilə iqtisadi səbəblərdən yaranan sinfi və sosial münaqişələr, cəmiyyətdə ədalət duyğusunun pozulmasına gətirib çıxarır. Cəmiyyətdə siniflər arasındakı gəlir bölgüsündə zamanla artan fərqliliklər ədalətlilik prinsiplərini pozur. Sosial ədalət anlayışı cəmiyyət üzvləri arasındakı bərabərsizliyin səviyyəsini nəzərə alaraq sosial sistemdə nələrin olmalı olduğunu müəyyən edir. (Jost & Kay, 2010).

Bəzilərinə görə sosial ədalət, milli gəlirin bərabər şəkildə bölünməsini nəzərdə tutur. Beləliklə, istismar aradan qalxır və sərvət yalnız bir qrupun əlində toplanmır. Digər baxışlara görə isə gəlir bölgüsü əmək əsasında və balanslı olarsa, sosial ədalət də o qədər təmin edilmiş olur (Özgüven, 2003, pp. 35–38). Yəni sosial ədalətin təmin olunmasında gəlir bərabərsizliyinin aradan qaldırılması vacibdir. İnsan ləyaqətinə uyğun olaraq milli gəlirin əmək payına əsasən bölünməsi sosial ədalətsizliyi iqtisadi baxımdan məhdudlaşdıra bilər.

Maraqlısı budur ki, iqtisadi sahədə bərabərliyin təmin olunması hər zaman sosial ədalətin təmin olunması demək deyil. Fərdin ədalət sistemindən bərabər şəkildə yararlanması da çox vacibdir. Bu gün sosial ədalət demokratiyanın əsas dayaqlarından biridir, cəmiyyətlə onun fərdləri arasında münasibətləri tənzimləyir. O, hər bir fərdin, cəmiyyətin bir üzvü kimi hansı hüquq və vəzifələri olduğunu müəyyənləşdirir. (Gürkan, 2001, p. 123). Çünki vətəndaşların öz haqq və vəzifələrini bilməsi və buna uyğun münasibətlərini tənzimləməsi cəmiyyət üçün çox önəmlidir. Bu yolla, bəşəri sülhün qorunması və ədalətli gələcəyin təmin edilməsi mümkündür.

Sosial ədalət, həm də, cəmiyyətdə fərdlərin sosial və mədəni hüquqlarının təmin olunması və bu hüquqlardan necə istifadə etməli olduqlarını müəyyən edən normativ bir sistemdir (Marshall, 1950).

Sosial ədalət anlayışı müxtəlif dövrlərdə dəyişərək müasir hüquq sistemlərində öz əksini tapmışdır. Bu mənada, və yeni sosial-iqtisadi və texnoloji amillər bərabərlik ideyasına yeni çalarlar qatmışdır (Esping-Andersen, 1990). Sosial hüquqlar, xüsusilə zəif təbəqələrin hüquq və azadlıqlarının təmin olunması dövlətin müsbət müdaxiləsi nəticəsində reallaşır (Ryan, 1906). Bu müdaxilə həm normativ sistemlər vasitəsilə, həm də birbaşa praktik yollarla həyata keçirilir.

## NƏTİCƏ

Sosial ədalətin tam təmin olunması üçün cəmiyyətdə iqtisadi və sosial bərabərsizliyin aradan qaldırılması lazımdır. Bu gün sosial ədalət, xüsusilə zəngin və yoxsul ölkələr arasında artan bərabərsizliklərə də diqqət yetirir. Dünya üzrə artan gəlir bərabərsizliyindən yaranan iqtisadi çətinliklər, həm daxili, həm də dövlətlər arası qarışıqlığa səbəb olur. “Bərabərlik” hər cəmiyyətin vətəndaşlarını bərabər qəbul etməsi, fərdlərin bir-birinə bərabər davranması və bəşəri imkanların hər vətəndaş üçün ədalətli şəkildə paylanması ilə izah olunan sosial idealdır. (Miller, 1999: 232). Sosial ədalətin komponentləri “bərabər vətəndaşlıq”, “imkan bərabərliyi” və “ədalətli bölgü” və. s. kimi anlayışlardır. Hər vətəndaş bərabər sosial və siyasi hüquqlara sahib olduqda bərabər vətəndaşlıq reallaşır. Resursların vətəndaşlara ədalətli paylanması da öz növbəsində ədalətli bölgünü təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1. de Mun, H. (1882). *Le socialisme et la doctrine catholique*. Paris: Librarie de l'Art Catholique.

2. Esping-Andersen, G. (1990). *The three worlds of welfare capitalism*. Princeton, NJ: Princeton University Press.
3. Fraser, N. (2000). Rethinking recognition. *New Left Review, 3*, 107–120.
4. Goyau, G. (1904). *Le catholicisme social*. Paris: Bloud et Gay.
5. Gürkan, S. (2001). *Sosyal adalet ve demokrasi*. Ankara: Nobel Yayıncılık.
6. Jost, J. T., & Kay, A. C. (2010). Social justice: History, theory, and research. *Handbook of Social Psychology*, 1120–1140.
7. Marshall, T. H. (1950). *Citizenship and social class*. Cambridge: Cambridge University Press.
8. Nozick, R. (1974). *Anarchy, state, and utopia*. New York, NY: Basic Books.
9. Özgüven, Ö. (2003). *Sosyal adalet ve eşitlik*. İstanbul: Beta Yayınları.
10. Rawls, J. (1971). *A theory of justice*. Cambridge, MA: Harvard University Press.
11. Ryan, J. A. (1906). *A living wage: Its ethical and economic aspects*. New York, NY: Macmillan.
12. Sen, A. (1999). *Development as freedom*. New York, NY: Knopf.
13. Taparelli d'Azeglio, L. (1845). *Teoria del diritto naturale*. Torino: Tipografia dell'Unione.
14. Topakkaya, N. (2008). *Felsefe tarihi ve etik*. İstanbul: Beta Yayınları.
15. Topakkaya, N. (2009). *Siyaset felsefesi*. İstanbul: Beta Yayınları.
16. Walzer, M. (1983). *Spheres of justice*. New York, NY: Basic Books.
17. Young, I. M. (1990). *Justice and the politics of difference*. Princeton, NJ: Princeton University Press.

## ABSTRACT

## THE HISTORICAL AND PHILOSOPHICAL FOUNDATIONS OF THE CONCEPT OF SOCIAL JUSTICE

**Malahat Mammadova**

Social justice is a concept that encompasses the protection of individuals' rights and the fair distribution of resources within social life. Throughout the course of historical development, this concept has primarily come to signify human rights, social protection, and the safeguarding and support of vulnerable groups within society.

In the contemporary world, social justice does not merely possess a legal character; it also acquires ethical and philosophical significance, regulating the relationship between the individual and society. It ensures equality of rights while simultaneously creating broader opportunities that enable individuals to live under conditions of freedom.

Social justice also implies the implementation of fair principles in the relationship between the individual and society. This is most clearly reflected in ensuring socio-economic equality and maintaining balance in social protection, education, and other public services. Therefore, social justice constitutes the foundation of social order that is of great importance both for individuals and for society as a whole, and ultimately serves to regulate the social dimensions of development in a fair and equitable manner.

**Keywords**: *justice, individual, society, equality, law*

## РЕЗЮМЕ

## ИСТОРИКО-ФИЛОСОФСКИЕ ОСНОВЫ ПОНЯТИЯ СОЦИАЛЬНОЙ СПРАВЕДЛИВОСТИ

**Мелахат Мамедова**

Социальная справедливость — это понятие, охватывающее обеспечение прав личности и справедливое распределение ресурсов в общественной жизни. В ходе исторического развития данное понятие в большей степени стало выражать идеи прав человека, социальной защиты, а также защиты и поддержки уязвимых слоёв общества.

В современном мире социальная справедливость носит не только правовой характер, но и приобретает нравственное и философское значение, регулируя взаимоотношения между личностью и обществом. Она обеспечивает равенство прав и одновременно открывает более широкие возможности, создавая условия для свободной жизни индивидов.

Социальная справедливость также предполагает применение справедливых принципов во взаимоотношениях между личностью и обществом. Это прежде всего проявляется в обеспечении социально-экономического равенства, сохранении баланса в системе социальной защиты, образования и других общественных услуг. Таким образом, социальная справедливость составляет основу общественного порядка, имеющего важное значение как для отдельных индивидов, так и для общества в целом, и в конечном итоге служит справедливому регулированию социальных аспектов развития.

**Ключевые слова**: *справедливость, личность, общество, равенство, закон*